# AZƏRBAYCAN RESPUBLİKASININ
# SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 12

Bakı şəhəri "12" yanvar 2011-ci il

**"2011-2015-ci illər üçün hemofiliya xəstəliyi üzrə Tədbirlər Proqramı"nın həyata keçirilməsi barədə"**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 noyabr 2010-cu il tarixli 224 nömrəli qərarı ilə təsdiq edilmiş "2011-2015-ci illər üçün hemofiliya xəstəliyi üzrə Tədbirlər Proqramı"nın icrasının təmin edilməsi, eləcə də hemofiliya xəstəliyindən əziyyət çəkən xəstələrə göstərilən tibbi xidmətin yaxşılaşdırılması, keyfiyyətinin və səmərəsinin artırılması məqsədilə

**ƏMR EDİRƏM:**

1. "2011-2015-ci illər üçün hemofiliya xəstəliyi üzrə Tədbirlər Proqramı"nın icrası üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).
2. Respublikanın səhiyyə idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, adı çəkilən Tədbirlər Planında nəzərdə tutulan tədbirlərin vaxtında və keyfiyyətli həyata keçirilməsi təmin edilsin və görülən işlər barədə hər yarımilliyin sonunda Səhiyyə Nazirliyinə məlumat təqdim edilsin.
3. Maliyyə-iqtisadiyyat şöbəsinə tapşırılsın ki, illik büdcə sifarişlərində "2011-2015-ci illər üçün hemofiliya xəstəliyi üzrə Tədbirlər Proqramı"nın reallaşması üçün tələb olunan vəsaitin nəzərdə tutulması təmin edilsin.
4. Əmrin icrasına nəzarət Nazir müavinlərinə həvalə edilsin.

**Oqtay Şirəliyev**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 11.01.11 tarixli 12 nömrəli əmri ilə təsdiq edilmişdir

## "2011-2015-ci illər üçün hemofiliya xəstəliyi üzrə Tədbirlər Proqramı"nın icrası üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin

## Tədbirlər Planı

| | Tədbirlərin adı | Məsul icraçı | İcra müddəti | Tərəfdaş qurumlar |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| | **1. Hemofiliyalı xəstələrin müalicəsi** | | | |
| 1.1. | Hemofiliyalı xəstələrdə qanaxmaların profilaktikası üçün faktor preparatları ilə müalicənin və hemofiliyanın inhibitor formasının müalicəsinin tətbiqi | EPHM, ETHvəTİ | 2011-2012 | |
| 1.2. | Hemofiliyalı xəstələrdə oynaqlarda baş verən fəsadların qarşısının alınması və ya aradan qaldırılması məqsədi ilə artroskopik sinovektomiya, eləcə də oynaqların müasir endoprotezlərlə əvəz olunması əməliyyatlarının Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunda təşkili | TYTŞ, ET TvəOİ | 2011-2012 | |
| 1.3 | Hemofiliyalı xəstələrə tibbi yardımın göstərilməsi üzrə rayonlararası kabinetlərin təşkil edilməsi | TYTŞ, EPHM | 2011 | |
| 1.4 | Hemofiliya üzrə kliniki protokolların, metodik vəsaitlərin və elmi ədəbiyyatın hazırlanması | İSİM, EPHM, ETHvəTİ | 2011-2012 | |
| 1.5 | Hemofiliyalı xəstələrin registrinin yaradılması | SİM, EPHM, yerli tibb idarə və müəssisələri | 2011 | |
| 1.5.1. | Hemofiliya ilə xəstələnmənin, hemofiliyalı xəstələrin faktor preparatları və digər dərman vasitələri ilə təmin edilməsinin monitorinqi üçün kompüter proqramının hazırlanması və tətbiqi | SİM, EPHM | 2011 | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| | **2. Hemofiliyaya dair maarifləndirmə** | | | |
| 2.1 | Hemofiliyaya dair populyar ədəbiyyatın, bukletlərin, vərəqələrin, plakatların çap edilməsi | İSİM, EPHM | 2011-2015 | Azərbaycan Hemofiliya Assosiasiyası |
| | **3. Kadr hazırlığı** | | | |
| 3.1 | Hemofiliya üzrə mütəxəssislərin hazırlanması (o cümlədən xarici ölkələrdə) | KETŞ, ETHvəTİ EPHM, ADHTİ, ATU | 2011-2015 | |
| 3.2. | Hemofiliya üzrə mütəxəssislərin beynəlxalq konqres, konfrans və simpoziumlarda iştirakının təmin edilməsi | KETŞ, BƏŞ | 2011-2015 | |